# PERSONALİA
# ПЕРСОНАЛИИ
# PERSONAL NEWS

## ZƏRİFƏ BUDAQOVA- 90



AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Zərifə İsmayıl qızı Budaqova 28 aprel 1929-cu ildə İrəvan (Yerevan) şəhərində anadan olmuşdur. 1948-ci ildə Yerevan Pedaqoji texnikumunu bitirmiş, sonra Yerevan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qəbul olmuşdur.

Ailəsi Bakıya köçmüş, Z.Budaqova da təhsilini ADPİ-də davam etdirmiş, oranı 1949-cu ildə bitirmişdir. Sonra Azərbaycan SSR EA-nın Dilçilik İnstitutunun aspiranturasına daxil olmuş, aspirantura təhsilini davam etdirmək üçün Moskva şəhərinə ezam edilmişdir. Aspirantura illərində *"Azərbaycan dilində feilin tərz kateqoriyası"* mövzusunda namizədlik işi üzərində çalışmış və 1953-cü ildə Moskva şəhərində dissertasiyasını uğurla müdafiə etmişdir.

10 il sonra, 1963-cü ildə Z.İ.Budaqova *"Müasir Azərbaycan dilində sadə cümlə"* mövzusunda doktorluq işini müdafiə etmişdir. Beləliklə, azərbaycanlı qadınlar arasında filologiya elmləri namizədi və filologiya elmləri doktoru elmi adı almış (Türk dilləri ixtisası üzrə) ilk qadın alimlərdən olmuşdur.

Onun zəngin elmi yaradıcılığı Azərbaycan dilçiliyində mühüm mərhələ təşkil edir. Çoxplanlı yaradıcılığı, elmi, ictimai fəaliyyətini nəzərə alınaraq o, 1968-ci ildə professor, 1980-ci ildə Azərbaycan SSR EA-nn müxbir üzvü seçilmişdir.

"Müasir Azərbaycan ədəbi dilində sadə cümlə" Zərifə Budaqovanın ən sanballı əsərlərindəndir. Müəllifin bu mövzuda qələmə aldığı əsər 1963-cü ilə monoqrafiya şəklində çap edilmişdir *(Budaqova Z. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1963, 223 s.)* Z.Budaqovanın "Müasir Azərbaycan ədəbi dilində sadə cümlə" kitabı bu sahədə ilk müstəqil əsərlərdəndir.

Z.Budaqovanın məşğul olduğu sahələrdən biri də durğu işarələridir. Z.Budaqova 1965-ci ildə "Azərbaycan dilinin durğu işarələri" adlı kitabı dilçi alim R.Rüstəmovla birlikdə yazır. 1977-ci ildə Z.Budaqova "Azərbaycan dilində durğu işarələri" (Bakı, 1977) kitabını nəşr etdirir. Bu əsərin əsasını 1965-ci ildə çapdan çıx-

mış "Azərbaycan dilində durğu işarələri" adlı kitabça təşkil edir. Bu kitabçada müəllifin məqsədi durğu işarələrinin işlənmə yerini daha dəqiq şəkildə verməkdən ibarətdir.

Akademik Tofiq Hacıyevlə birlikdə yazdığı *"Azərbaycan dili" (Bakı, Elm, 1992*) kitabı ədəbi dilimizin müəyyən dövrünün təqdimi baxımından əhəmiyyətlidir.

Z.İ.Budaqovanın kitabları sırasında 1987-ci ildə nəşr olunan (rus dilində) *"Osnovı qrammatiki sovremennoqo Azerbaydcanskoqo yazıka. Morfoloqiya"* kitabı da əsas yerlərdən birini tutur.

Prof. Z.Budaqovanın elmi fəaliyyəti, əsasən, müasir Azərbaycan dilinin qrammatik quruluşunun və üslublar sisteminin araşdırılmasına həsr edilib. O, Azərbaycan dilinin morfologiyası, sintaksisi, bədii dilin üslubiyyatı mövzularında dəyərli kitablar yazmışdır.

Z.İ.Budaqova Azərbaycan dilçilərinin 1978-1980-ci illərdə apardığı tədqiqat işləri əsasında yazılmış "Müasir Azərbaycan dili" əsərinin məsul redaktorlarından biri olmuşdur.

Z.Budaqova dilçi kadrlarının yetişməsinə də öz əməyini sərf etmişdir. Onlarla elmlər namizədi və doktoru onun elmi rəhbərliyi ilə həyata, elmə vəsiqə almışdır.

3 cildlik fundamental "Azərbaycan dili qrammatikası"nın əsas müəlliflərindəndir. Onun rəhbərliyi altında "Müasir Azərbaycan dilində söz birləşmələri" kollektiv monoqrafiya nəşr edilmişdir. "Samouçitel azerbaydcanskoqo yazıka", "Azərbaycan ədəbi dilinin üslubiyyatı" (Oçerklər), "Azərbaycan dilinin semasiologiyası" kitablarında onun da araşdırmaları öz əksini tapmışdır.

Zərifə xanım 100-dən artıq elmi əsərin, 8 kitabın müəllifidir. O, bir sıra beynəlxalq, ümumittifaq və respublika miqyaslı simpozium, konfrans və elmi sessiyalarda iştirak edərək Azərbaycan Elmlər Akademiyasını təmsil etmişdir. O, Bakıda, Moskvada, Daşkənddə, Almatıda, Aşqabadda bir sıra dissertasiyaların müdafiəsində rəsmi opponent kimi iştirak etmişdir.

O, 60 il ömür sürdü. Lakin mənalı bir ömür. Bu az ömürdə Azərbaycan dilçiliyi üçün çox böyük işlər gördü. Görkəmli dilçi alim, türkoloq Zərifə xanım 7 noyabr 1989-cu ildə vəfat etdi. Onun əziz xatirəsi elm adamlarının və tanıyanların qəlbində uzun müddət yaşayacaqdır.

*İsmayıl Kazımov*